"FOMİNOV KONSALTİNG" MMC
Azərbaycan Respublikası, Bakı şəhəri,
AZ1052, A. Rajabli küç. 224
Tel/Fax: +994 (12) 565 57 86
http://www.fcc.az

# "Fominov Konsalting" MMC-nin

# "Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit" (SƏTƏM) Siyasəti

"Fominov Konsalting" MMC fəal şəkildə insanların sağlamlığını və rifahını qorumaq, sağlam və təhlükəsiz iş mühitini təmin etmək və öz aktivlərinin və ətraf mühitin yüksək səviyyədə qorunmasını təmin etmək məqsədi daşıyır. Şirkət sıfır qəza mədəniyyətinin inkişafına çalışır və texnoloji proses və peşə sağlamlığı və təhlükəsizlik riskləri daxil olmaqla, öz fəaliyyətinin potensial risklərini qiymətləndirmək və nəzarət etmək üçün bütün lazımi tədbirləri görür. Bu siyasət "Fominov Konsalting" MMC-nin bütün biznes fəaliyyətlərində Sağlamlıq və təhlükəsizlik göstəricilərinin idarə edilməsi üçün əsas tələbləri müəyyən edir və bununla da peşə xəstəliklərinin, bədbəxt hadisələrin qarşısının alınması və fəaliyyət göstərdiyimiz cəmiyyətlərdə insanların müdafiəsi üçün riskləri aradan qaldırır və ya azaldır.

İşçi heyətimizin SƏTƏM qaydalarını birinci dərəcəli əhəmiyyətə malik amil kimi əsas götürəcəyinə və əməli fəaliyyətimizin əsası olan davamlı inkişafın və inamın əldə olunmasında fəal şəkildə iştirakını əsirgəməyəcəyinə inanırıq. Bizim əsas öhdəliklərimiz aşağıdakılardan ibarətdir:

- Sağlam və təhlükəsiz iş mühitini təmin etmək;
- Bizim iş fəaliyyətimizdən irəli gələn sağlamlıq və təhlükəsizliklə bağlı risklərə düzgün nəzarətin təmin olunması;
- Işçilərə müntəzəm olaraq SƏTƏM təcrübəsi barədə seminarlar təşkil etmək və maarifləndirməni təmin etmək;
- Davamlı olaraq praktiki SƏTƏM qaydalarının və normalarının inkişafını təmin edərək SƏTƏM performansını artırmaq;
- Bütün işçi heyətinin öz vəzifə səlahiyyətlərini SƏTƏM qaydalarına uyğun olaraq səriştəli və səlis yerinə yetirmələri məqsədi ilə onlara bu yöndə mütəmadi təlimlər keçmək;
- İşçi heyətinin zədələnməsinin və iş qəzalarının qarşısını almaq;
- İş yerinin ətraf mühitə göstərə biləcəyi mənfi təsirləri minimum endirmək;
- Davamlı olaraq ətraf mühitin mühafizəsini və resurslardan qənaətcil istifadəni əsas tutmaq, ekoloji cəhətdən effektiv texnologiyaları inkişaf etdirmək, tullantı miqdarını minimum həddə endirmək;
- Aidiyyəti üzrə bütün qanunvericiliyə, qaydalara, standartlara və digər mövcud tələblərə cavab vermək;
- Bu siyasəti bütün işçilərin başa düşməsi və razılaşması üçün onlara çatdırmaq, bütün işçilərin öz SƏTƏM öhdəliklərini bildiyinə əmin olmaq.

Bu SƏTƏM siyasətinin davamlı olaraq yenilənməsi və tətbiq edilməsi üçün ildə bir dəfə rəhbərlik tərəfindən yenidən baxılacaqdır.

Direktor,

Yuriy Fominov

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ
FOMINOV KONSULTING
LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC